# Bacarıqlar haqqında

## Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı



A World Enabled
THE VICTOR PINEDA FOUNDATION

unicef

© Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF)

Bu kitab UNICEF-in Baş Qərargahı tərəfindən tərtib
olunmuş nəşrin uyğulaşdırılmış variantıdır.

BMT-nın Uşaq Fondu (UNICEF)
Azərbaycan Nümayəndəliyi
Neftçilər prospekti, 24, Bakı, Azərbaycan AZ 1095
http://www.unicef.org/azerbaijan

# BACARIQLAR HAQQINDA

## Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı

## MÜNDƏRİCAT



Əlillik məsələsi 2


Dəyişiklik üçün tədbirlər 3


Bu kitab haqqında 3


Konvensiya haqqında 7


Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın xülasəsi 8


Hüquqlar necə reallaşır 17


Biliyinizi yoxlayın 19


Lüğət 21

# Əlillik məsələsi

*Mənim ayaqlarım yoxdur,*
*Lakin mənim hələ də hisslərim var,*
*Mən görmürəm,*
*Lakin mən hər zaman düşünürəm*
*Baxmayaraq ki, eşitmirəm,*
*Mən hələ də ünsiyyət qurmaq istəyirəm,*
*Nə üçün insanlar məni faydasız, düşünə bilməyən, danışa bilməyən hesab edirlər,*
*Halbuki mən digərləri kimi*
*Dünya haqqında fikirləşməyi bacarıram.*

**—Coralie Severs, 14 yaş, Böyük Britaniya**

Bu şer dünyanın bütün yerlərində yaşayan və əlilliyi olan milyonlarla uşaq və böyüyün fikrini ifadə edir. Onlardan çoxu hər gün ayrı-seçkiliklə üzləşir. Onların bacarıqlarına diqqət yetirilmir və onların imkanları kifayət qədər qiymətləndirilmir. Onlar ehtiyacları olan təhsil və tibbi xidmət almırlar və onlar icma fəaliyyətlərindən təcrid olunurlar.

Halbuki əlilliyi olan uşaqların və böyüklərin başqalarının hüquqları kimi hüquqları vardır.



**“Məni həvəsləndir... sən bunu edə bilərsən!”, Bismark Benavides, 13 yaş, Nikaraqua**

# Dəyişiklik üçün tədbirlər

Bax bu səbəbdən də Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya yaradılmışdır. Bu beynəlxalq saziş tələb edir ki, dünya hökumətləri əlilliyi olan uşaq və böyüklərin hüquqlarını müdafiə etsinlər.

UNICEF və onun tərəfdaşları bütün olkələri bu Konvensiyanı ratifikasiya etməyə təşviq etmək üçün çalışırlar. Bu, əlilliyi olan uşaqları ayrı-seçkilikdən müdafiəsini və onların cəmiyyətə inteqrasiyasını təbliğ edəcək. Bizim hamımızın bu işdə rolu vardır. Hər bir kəsə necə rəftar edilməsini təmin etməkdə necə iştirak etməyi bilmək məqsədilə bu kitabı oxuyun.

## Əlilliyi başa düşmək

Siz nə vaxtsa özünüzü təcrid olunmuş hiss etmisinizmi? Görmə, öyrənmə, gəzmə və ya eşitmə çətinlikləri olan uşaqlar və böyüklər özlərini çox vaxt təcrid olunmuş hiss edirlər. Başqaları kimi iştirak etmək üçün bu insanların qarşısında dayanan bir çox maneə vardır və bu maneələrdən çoxu cəmiyyət tərəfindən yaradılır. Məsələn, əlil arabasında olan uşaq da məktəbə getmək istəyir. Lakin onun bunu emtəyə imkanı olmaya bilər, çünki məktəbdə arabanın daxil olması üçün xüsusi keçid yoxdur və məktəbin direktoru və müəllimləri bu fikri dəstəkləmir. Hər kəsin qatılması üçün biz mövcud qaydaları, münasibətləri və hətta binaları belə dəyişməliyik.


Lisa Lavoie

# Bu kitab haqqında

Bu kitab Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanı, onun nə üçün tərtib olunduğunu və öz hüquqlarını həyata keçirməyə bu Konvensiyanın necə kömək edə biləcəyini izah etmək məqsədilə uşaqlar üçün və uşaqların iştirakı ilə yaradılmışdır. Biz ümid edirik ki, siz bu kitabdan istifadə edərək əlilliyi olan uşaqların öz məqsədlərinə çatmaları üçün bərabər şans almalarının təbliğ edilməsinə kömək edə biləcəksiniz.

Sizin əlilliyiniz ola bilər və ya siz əlilliyi olan hər-hansı bir şəxsi tanıya bilərsiniz. Əlilliyi olan insanların görmə, eşitmə, gəzmə və ya yaddaşla ilə bağlı problemləri ola bilər. Lakin onların həm də paylaşmaq istədikləri arzuları, ümidləri və ideyaları vardır - bu kitabda nəşr edilmiş rəsmlər və şerlərdə olduğu kimi.

Biz bu məlumtları valideynlərinizlə, müəllimlərinizlə, dostlarınızla və maraqlı ola biləcək istənilən insanlarla paylaşmağınızı xahiş edirik.

Bu kitabdan siz Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın xülasəsini və onun nə üçün ərsiyə gəldiyini biləcəksiniz. Siz hər bir kəsin hüquq və vəzifələrini və əlilliyi olan uşaqların öz hüquqlarını reallaşdırmalarına yardım etmək üçün hökumətlərin hansı addım atmaları və tədbirlər görmələrini öyrənə bilərsiniz. Və siz vəziyyəti dəyişdirmək üçün nə kimi tədbirlər görülməli olduğunu da öyrənə bilərsiniz.

Kitabın sonunda sözlər və onların mənaları verilmişdir. Siyahı və ya lüğət sizin yeni olan sözləri başa düşmənizə kömək edəcək.

## Konvensiya nədir

Konvensiya xüsusi məsələlər üzrə eyni qanuna riayət etmək üçün ölkələr arasında bağlanan müqavilədir. Hər hansı ölkə Konvensiyanı imzalayanda və onu ratifikasiya edəndə (təsdiq edəndə) bu təsdiq ölkənin hüquqi öhdəliyinə çevrilir və onun hökumətinin tədbirlərini yönləndirir. Bu cür sənəd çox vaxt Konvensiyanın məqsədlərini dəstəkləmək üçün hökumətlərə öz qanunlarını uyğunlaşdırmağa və dəyişməyə sövq edir.

## İnsan hüquqları nədir

Dünyada hamı onların hüquqlarını müdafiə edən və ləyaqətini (bütün insanların doğulanda əldə etdikləri ləyaqət) qoruyan qanunlarla müdafiə olunur. Heç kəs istisna edilmir. Məsələn, hər bir insan yaşamaq və köləlikdən azad olmaq hüququna malikdir. Bu hüquqlar 1948-ci ildə BMT-nin bütün üzv ölkələri tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsidqlənmişlər. Bütün uşaqların qidalanmaq və tibbi xidmət almaq, məktəbə getmək və zorakılıq və sui-istifadədən müdafiə olunmaq hüququ vardır. Uşaqlar həmçinin onların həyatına təsir edən qərarların böyüklər tərəfindən qəbul olunması zamanı nə baş verməli olduğunu və onların rəyinin nəzərə alınması hüququna malikdirlər. Uşaqların hüquqları Uşaq Hüquqları Konvensiyasında qeyd olunur.

# İsmarıc BACARIQDIR

## Müəllif - Victor Santiago Pineda, Victor Pineda Fondunin prezidenti

Mənim beş yaşım olanda mən yeriyə bilmədim. Böyüdükcə mənim əzələlərim o qədər zəiflədi ki, nəfəs belə ala bilmirdim. Mən fikirləşirdim ki, fərqli olduğum üçün məni heç kəs xoşlamır. Mənim valideynlərim nə edəcəklərini bilmirdilər. Lakin onlar məni sevdiklərini həmişə nümayiş etdirirdilər. Onlar mənə inanırdılar və mənə risk etməyə və yeni işlər görməyə cəhd etməyə imkan verirdilər.
Məndə özünəinam hissi yarandı.

Ailəm bilirdi ki, öz yolumu tapmaq üçün mən mübarizə aparmalı olacağam. Bütün uşaqlığım boyu, nə edə biləcəyim və bunu necə edəcəyim haqqında insanların fikirlərini dəyişməli oldum. Sonunda, mən öyrəndim ki, məni qoruyan qanunlar vardır. Bu qanunlar sayəsində, mən özümə lazım olan yardımı aldım və əlaçı şagirdə çevrilə bildim.

> Əlilliyi olmaq pis şey deyildir. Onunla hətta qürur da duymaq olar. Biz hamımız müxtəlifik və hamımızın müxtəlif **BACARIQLARIMIZ** vardır. Hər bir uşaq ailələrimiz, məktəblərimiz və icmalarımız üçün bacarığın səfiri ola bilər. Bizim hər birimizin başqalarına xidmət edə biləcək fikirləri, təcrübələri və bacarıqları vardır. Bu kitab bütün millətlərdən olan bütün insanları bizə olduğumuz kimi hörmət etməyə və şərəfləndirməyə çağırır.
>
> **– Victor Santiago Pineda**

Mən böyüdükcə fikirləşirdim ki, görəsən mənim kimi uşaqların hüquqlarının müdafiə olunmadığı bir yerdə yaşasaydım həyatım necə olardı. Mən öyrəndim ki, bütün dünyadan mənim kimi insanlar BMT-də bir araya gələrək bu məsələlər üzərində işləyirlər və onlara qoşulmaq üçün mən çox çalışdım.

Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın layihəsini hazırlayan BMT Komitəsinin ən gənc üzvü mən idim. Mən çoxlu dostlarla tanış oldum və onlarla ideyalarımı bölüşdüm, və biz birlikdə Konvensiyanı hazırladıq.

Dünyada hər kəs fərqli görünüşə malikdir və müxtəlif ideyaları, təcrübələri, ənənələri və bacarıqları vardır. Mən öyrəndim ki, bu fərqliliklər yeni imkanlar, ümidlər, arzular və dostluqlar yaradır.

Bu kitab əlilliyi olan və olmayan uşaqlara çiyin-çiyinə duraraq düzgün olan işlər üçün mübarizə aparmağa bir çağırışdır. Dünyamızda olan insanların müxtəlifliyi qiymətləndirməli və paylaşmalı olduğumuz bir xəzinədir. Hər bir uşaq dünya ailəsinin bir hissəsidir və bu dünyanın unikal bacarıqlarına öz töhfəsini verir. Bütün uşaqlar buraya daxildir.

*Victor Santiago Pineda tərbiyəçi və rejissordur. O, əlilliyi olan gənclərlə işləyir və onlara öz hüquqları barədə məlumat verir. O, öz Fondu ilə Dünya Təkanı təşəbbüsü yaratmışdır və əlilliyi olan gənc insanların bacarıqları və potensialı haqqında ictimaiyyəti məlumatlandırır. Cənab Pineda BMT, Dünya Bankı və hökumət liderlərilə işləyərək hər kəs üçün hörmət, bərabər imkanlar və ləyaqəti təbliğ edir. Onun əzələ distrofiyası vardır və o, əlil arabası ilə hərəkət edir.*

*Mən o zaman xoşbəxtəm ki, …*
*Kiçik əşyalar məni xoşbəxt edir*
*Mən o zaman xoşbəxtəm ki, …*
*İnsanlar mənim  nə demək istədiyimi başa düşürlər*
*Mən başqa insanlarla eyni səviyyədə danışanda*
*Mən xoşbəxtəm, çünki özümlə qürur duyuram*
*Mən təhsil alanda xoşbəxtəm*
*Təhsil almaqla mən yeni məlumatlar əldə edə bilərəm*
*Mən bütün dünyadan gələn xəbərləri anlamağa başlayıram*
*Mən yemək yeyəndə nə qədər pul ödəməli olduğumu hesablaya bilirəm*
*Mən fikirləşdiyimin düzgün və ya yalnış olduğunu deyə bilərəm*
*Mən xoşbəxtəm, çünki bir çox işləri özüm görməliyəm*
*Mən xoşbəxtəm, çünki mənim görəcəyim sevimli işim var*
*Futbolçulara tərəfdarlıq edəndə xoşbəxt oluram*
*Çunki onların ehtirası çox böyükdür*
*Mənə elə gəlir ki, mən onlardan biriyəm*
*Və mən çox həyacanlanıram*
*Mən xoşbəxtəm, çünki arzum var*
*O kiçik görünə bilər, amma*
*Hər günümü planlaşdırmaq və inanaraq yaşamaq*
*Məni çox xoşbəxt edir*

**—Kim Yoona, 15 yaş, Korea Xalq Respublikası**



**“Oynamaq hüququ”, Cavlon Rahmonberdıyev, 12 yaş, Özbəkistan**

# Konvensiya haqqında

Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya əlilliyi olan və olmayan insanlara eyni cür rəftar edilməsini təmin etmək üçün dünya ölkələri arasında bağlanmış bir razılaşmadır. Konvensiyalar, bəzən sazişlər, razılaşmalar, beynəlxalq müqavilələr və ya hüquqi sənədlər adlandırılırlar və onlar sizin hökumətlərə göstəriş verirlər ki, sizin hüquqlarınızdan istifadə edə bilmənizi təmin etmək üçün nə edilməlidir. Bütün əlilliyi olan böyüklər və uşaqlar, yəni həm qızlar, həm oğlanlar eyni dərəcədə bu hüquqlardan istifadə etməlidirlər.

Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya 2006-cı ilin 13 dekabr tarixində qəbul edilmişdir. 2 Aprel 2008-ci il tarixədək, Konvensiyanı 20 ölkə ratifikasiya etmişdir, bu isə o deməkdir ki, Konvensiya 3 may 2008-ci ildə qüvvəyə minmişdir (Konvensiyanın qaydalarına  www.un.org/disabilities/ ünvanında baxa bilərsiniz).

Baxmayaraq ki, Konvensiya yaşından asılı olmayaraq əlilliyi olan bütün şəxslər üçündür, bu kitabda hüquqların uşaqların həyatında nə məna kəsb etdiyinə baxılır, çünki siz vacibsiniz!

## Konvensiya nə üçün lazımdır?

Əgər sizin valideynləriniz və ya ailənizdə kiminsə əlilliyi varsa, bu Konvensiyada onlar üçün faydalı və həvəsləndirici məlumatlar təqdim edilir. Bu sənəd sizi və ailənizi, sizə kömək etmək istəyən dostlarınızı hüquqlarınızdan istifadə etməyə yönləndirir.

Burada həmçinin əlilliyi olan bütün insanlara öz hüquqlarını həyata keçirməyə yardım etmək üçün hökumətlərin nə etməli olduqları müəyyən edilir.

Müxtəlif ölkələrdən olan və müxtəlif əlilliyi olan insanlar bu Konvensiyanın hazırlanması üçün öz hökumətlərilə birgə işləmişlər. Əlilliyi olan insanlara məktəbə getmək, iş əldə etmək, şənlənmək və icmalarında xoşbəxt yaşamağa kömək edən yaxşı tədbirlər və qanunlara nəzər salmaqla onlarda ideyalar yaranmışdır.

Bir çox mövcud qayda, münasibət və hətta bina əlilliyi olan uşaqların məktəblərə getməsini, oynamasını və istədikləri tədbirlərdə iştirak etməsini təmin etmək üçün dəyişdirilməlidir. Əgər sizin hökumət Konvensiyanı ratifikasiya etmişdirsə, deməli bu dəyişikliklərin baş verməsinə razılaşmışdır.

Yadda saxlamaq vacibdir ki, bu Konvensiyada olan hüquqlar yeni hüquqlar deyildir. Onlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Uşaq Hüquqları Konvensiyası və insan hüquqları üzrə digər beynəlxalq müqavilələrdə tanınmış eyni insan hüquqlarıdır. Əlilliyi olan İnsanların Hüquqları haqqında Konvensiya əlilliyi olan insanların hüquqlarına hörmət ediləcəyinə təminat verir.

*Nikbinlik bizim həyatımızın şüarıdır*
*Mənə qulaq asın dostum, dostlarım*
*Qoy sizin şüarınız sevgi və inam olsun*
*Həyat rəhimli Allahımızdan bizə vergidir*
*Həm göylərdə, həm yerdəki bütün varlıqlara*
*Əgər əlilliyi olan dostunuz vardırsa sizin*
*Rahat hiss etmələri üçün onlara yaxın olun*
*Onları nikbin olmağa və həyatı sevməyə səsləyin*
*Bədbinlik qorxaqlıqdır deyin onlara*
*Mərdlik və ötkəmlik şücaət işarələridir*
*Ümid həyatımızdakı məqsədimizdir*
*Zərif təbəssüm bizi birləşdirir*
*Həyatda ümidsizlik və ümidsiz həyat yoxdur*

**—Jwan Jihad Medhat, 13 yaş, Iraq**

# Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın xülasəsi

Konvensiyada çoxlu vədlər verilir. Onun 50 maddəsi bu vədlərin hansılar olduğunu aydın izah edir. Növbəti səhifələrdə biz “hökumət” dedikdə Konvensiyanı ratifikasiya etmiş ölkələr nəzərdə tutacayıq (onlara həm də “üzv ölkələr” deyilir).

## Qanunlar nədir?

Qanunlar insanların bir-birinə hörmət etməsi və təhlükəsiz şəkildə birgə yaşaması üçün hər kəsin əməl etməli olduğu qaydalardır.

## Ratifikasiya etmək nə deməkdir?

Konvensiyanı ratifikasiya edən hökumət onun maddələrini tətbiq etmək üçün əlindən gələni edəcəyinə razılıq verir. Yoxlayın görün sizin ölkəniz Konvensiyanı ratifikasiya edibmi. Əgər edibsə, siz hökumət nümayəndələrinizin məsuliyyətlərini onlara xatırlada bilərsiniz. BMT Konvensiyanı imzalamış və onunla razılaşmış ölkələrin siyahısını dərc edir. Ölkənizin Konvensiyanı ratifikasiya edib-etmədiyini öyrənmək üçün BMT-nin internet saytına baxa bilərsiniz: <www.un.org/disabilities/>.

## Maddə 1: Məqsəd

Bu maddədə Konvensiyanın əsas məqsədi verilir və bu məqsəd əlilliyi olan bütün insanlar, o cümlədən uşaqların bütün insan hüquqlarından tam və bərabər surətdə istifadə etmələrini təbliğ etmək, müdafiə etmək və təmin etməkdən ibarətdir.

## Maddə 2: Anlayışlar

Bu maddədə bu Konvensiyada xüsusi məna daşıyan sözlərin siyahısı verilir. Məsələn, konvensiyanın "dilinə" danışıq dilində işlənən sözlər, işarələr və digər qeyri-danışıq sözləri daxildir, "ünsiyyətə" dillər, mətnlər, Brayl əlifbası (bu əlifbada oxumaq üçün diyircəkli nöqtələr və rəqəmlərdən istifadə edilir), toxunuş vasitəsilə ünsiyyət, böyük hərflər və istifadə edilə bilən multimediya vasitələri (məsələn, internet saytları və ya audio) daxildir.

## Maddə 3: Ümumi prinsiplər

Bu Konvensiyanın əsas prinsipləri (əsas inancları) bunlardır:

(a) Hər kəsin irsən aldığı ləyaqətinə, seçim etmə azadlığına və müstəqilliyinə hörmət etmək.

(b) Ayrı-seçkiliyə yol verilməməsi (hamıyla ədalətli rəftar etmək).

(c) Cəmiyyətdə tam iştirak və inteqrasiya (icmanın həyatına daxil ounma).

(d) Müxtəlifliyə hörmət və əlilliyi olan insanların insan müxtəlifliyinin bir hissəsi kimi qəbul etmək.

(e) Bərabər imkanlar.

(f) Müyəsərlik (nəqliyyatdan, yerlərdən və məlumatlardan istifadə imkanının olması və əlillik olduğu üçün bunlardan istifadə etməkdən imtina edilməməsi).

(g) Kişilər və qadınlar arasında bərabərlik (qız və ya oğlan olmağından asılı olmayaraq, eyni imkanların olması).

(h) Əlilliyi olan uşaqların inkişaf edən bacarıqlarına və öz şəxsiyyətlərinin qorunub saxlanması hüquqlarına hörmət (bacarıqlarına görə hörmət edilməsi və kim olmağından qürur duyulması).

## Maddə 4: Ümumi öhdəliklər

Əlilliyi olan insanlara qarşı ayrı-seçkilik yaradan heç bir qanun olmamalıdır . Zəruridirsə, əlilliyi olan şəxslərin hüquqlarını müdafiə etmək üçün hökumətlər yeni qanunlar hazırlamalı və onları tətbiq etməlidirlər. Əgər köhnə qanunlarda və ənənələrdə əlilliyi olan insanlara qarşı ayrı-seçkilik varsa, hökumətlər onların dəyişdirilməsi yollarını tapmalıdırlar.




Əgər əlilliyi olan uşaqları digər uşaqların etdikləri şeyləri etməyə imkan verməyən qanunlar və ya təcrübə varsa, onlar dəyişdirilməlidirlər. Bu cür qanun və təcrübələri dəyişdikdə, sizin hökumət əlilliyi olan uşaqlar üzrə təşkilatlarla məsləhətləşmə aparmalıdır.

Yeni qanunlar və siyasətlər hazırlamaq üçün hökumətlər əlilliyi olan insanlardan, o cümlədən uşaqlardan məsləhət almalıdırlar.

### Maddə 5: Bərabərlik və ayrı-seçkiliyin yol verilməzliyin

Hökumətlər qəbul edirlər ki, bütün insanların qanunla müdafiə olunma hüququ vardır və ölkənin qanunları onda yaşayan bütün insanlara tətbiq edilir.

### Maddə 6: Əlilliyi olan qadınlar

Hökumətlər bilirlər ki, əlilliyi olan qızlar və qadınlar bir çox müxtəlif növ ayrı-seçkiliklərlə üzləşirlər. Onlar qadın və qızların insan hüquqlarını və azadlıqlarını qorumağa razılıq verirlər.

### Maddə 7: Əlilliyi olan uşaqlar

Hökumətlər əlilliyi olan uşaqların digər uşaqlarla eyni olaraq bütün insan hüquqlarından və azadlıqlarından istifadə etmələrini təmin etmək üçün bütün mümkün tədbirləri görəcəklərinə razılaşırlar. Onlar həmçinin əlilliyi olan uşaqların həyatlarına təsir edən məsələlərdə öz fikirlərini azad şəkildə ifadə etmələrini təmin etməyə razılıq verirlər. Uşaq üçün ən yaxşı nə varsa, o birinci nəzərdən keçirilməlidir.

Əlilliyi olan oğlanlar və qızların bütün digər uşaqlar kimi eyni hüquqları vardır. Məsələn, hər bir uşağın məktəbə getmək, oynamaq, zorakılıqdan müdafiə olunmaq və ona təsir edən məsələlər üzrə qərar qəbul edilməsində iştirak etmək hüququ vardır. Hökumətlər əlilliyi olan uşaqların bu hüququ həyata keçirmək üçün zəruri məlumat və dəstəyi təmin etməlidir.

Kütləvi-informasiya vasitələri əlilliyi olan uşaqlar və böyüklərə qarşı ədalətsizliklər haqqında məlumat verməlidir.




### Maddə 8: Məlumatlılığın artırılması

Hökumətlər əlilliyi olan şəxslərin hüquq və ləyaqəti, nailiyyətləri və bacarıqları haqqında hamıya məlumat verməlidirlər. Onlar əlilliyi olan insanlarla bağlı stereotiplərə, yalnış münasibətə və fəaliyyətlərə qarşı mübarizə aparmağa razılıq verirlər. Məsələn, sizin məktəb əlilliyi olan insanlar hətta lap kiçik yaşlı uşaqlara qarşı hörmət edilməsi münasibətini təbliğ etməlidir.

### Maddə 9: Müyəssirlik

Hökumətlər əlilliyi olan insanların müstəqil yaşamalarını və icmalarının həyatında iştirak etmələrini mümkün etməyə razılaşırlar. İctimaiyyət üçün açıq olan istənilən yer, o cümlədən binalar, yollar, məktəblər və xəstəxanalar əlilliyi olan şəxslər, o cümlədən uşaqlar üçün istifadə edilə bilən olmalıdırlar. Siz ictimai binadasınızsa və sizə yardım lazımdırsa, işarələr dilinin peşəkar oxucusu və ya tərcüməçisi sizə yardım etmək üçün orada olmalıdır.


Cəfərova Kəmalə, 5 yaş, Azərbaycan

## Bəs texnologiya necə?

Müxtəlif fiziki imkanları olan insanların telefonlardan, kompüterlərdən və digər texnologiyalardan istifadəsi asan olmalıdır. Məsələn, internet saytları elə dizayn edilə bilər ki, klaviaturadan istifadədə çətinlik çəkənlər, görmə və ya eşitmə problemləri olanlar informasiyadan başqa formatda yararlana bilsinlər. Kompüterin klaviaturasında Brayl əlifbası yerləşdirilə bilər və ya kompüterin monitorunda meydana gələn sözlər danışıq sintezatoru vasitəsilə səsləndirilə bilər.

## Maddə 10: Yaşamaq hüquqi

İstənilən insan doğulduqda yaşamaq hüququ ilə doğulur. Hökumətlər bu hüququn həm əlilliyi olmayan, həm də olan şəxslərə eyni cür şamil edildiyi barədə təminat verir.

## Maddə 11: Təhlükə və fövqəladə hallar

Əlilliyi olan insanlar başqaları kimi müharibə, fövqəladə hal və ya təbii fəlakət, məsələn tufan zamanı müdafiə olunmaq və qorunmaq hüququna malikdirlər. Əlilliyiniz olduğuna görə sizi qanuni olaraq sığınacaqdan məhrum edə və ya başqaları xilas edilən zaman tək qoya bilməzlər.

Sizin yaşamaq hüququnuz vardır. Bu sizə verilən bir bəxşişdir və qanuna görə heç kim onu sizin əlinizdən ala bilməz.


Lisa Lavoie

## Maddə 12: Qanun qarşısında bərabərlik

Əlilliyi olan insanlar başqaları kimi "hüquqi imkanlardan" eyni cür istifadə edə bilməlidirlər. Bu o deməkdir ki, siz böyüdükdə əlilliyinizin olub-olmadığına baxmayaraq oxumaq üçün və ya evinizi kirayəyə vermək məqsədilə müqavilə bağlamaq üçün kredit ala bilməlisiniz. Siz həm də əmlaka sahib ola və ya onu vərəsəliklə ala bilərsiniz.

## Maddə 13: Ədliyyədən istifadə imkanı

Əgər sizə cinayət nəticəsində zərər dəyibsə, digər zərər çəkmiş və ya düzgün hərəkət etmədiyinə görə ittiham edilmiş şəxsləri görmüsünüzsə, işinizə baxılan zaman sizin ədalətli rəftar görmək hüququnuz vardır. Məhkəmə işlərində sizə öz fikirlərinizi azad şəkildə ifadə etməyə kömək edilməlidir.

## Maddə 14: Şəxsin azadlığı və təhlükəsizliyi

Hökumətlər diqər insanlarda olduğu kimi əlilliyi olan insanların azadlıqlarının qanunla müdafiə olunmasını təmin etməlidirlər.

## Maddə 15: İşgəncə  və ya qəddar, qeyri-insani və ya alçaldıcı rəftar və ya cəzadan azad olma

Heç kəsə işgəncə verilə və ya hədə-qorxu gəlinə və ya qəddar münasibət göstərilə bilməz. Və hər kəsin tibbi və ya elmi təcrübələrdə iştirakdan imtina etmək hüququ vardır.

## Maddə 16: Zorakılıq və sui-istifadədən azad olma

Əlilliyi olan uşaqlar zorakılıq və sui-istifadədən müdafiə olunmalıdırlar. Onlarla evdə və ya evdən kənarda pis rəftar edilməməli və ya zərər vurulmamalıdır. Əgər siz zorakılıq və ya pis rəftarla üzləşmisinizsə, sui-istifadənin dayandırılması və bərpa olunmaq üçün yardım almaq hüququnuz vardır.

## Maddə 17: Şəxsin müdafiə edilməsi

Heç kəs sizinlə fiziki və  əqli bacarıqlarınıza görə yarımçıq insan kimi rəftar edə bilməz. Başqalarının sizə olduğunuz kimi hörmət etmələrinə hüququnuz vardır!

## Maddə 18: Hərəkət azadlığı və vətəndaşlıq

Hər bir uşağın qanuni şəkildə qeydiyyata alınmış, ad və vətəndaşlıq almaq və imkan daxilində valideynlərini tanımaq və onlar tərəfindən qayğı görmək hüququ vardır. Və insanlar öz əlilliklərinə görə ölkədən çıxmaq və ya oraya gəlməkdən imtina edilə bilməzlər.

## Maddə 19: Müstəqil yaşamaq və icmaya inteqrasiya edilmək

İnsanlar, əlil olub-olmamalarından asılı olmayaraq, harada yaşamaqlarını seçmək hüququna malikdirlər. Siz böyüyəndə sizin istədiyiniz halda müstəqil yaşamaq və cəmiyyətə inteqrasiya edilmək hüququnuz olacaq. İcmanızda yaşamaq üçün sizin həmçinin evinizdə qulluq edilməsi və şəxsi dəstək kimi dəstək xidmətlərindən istifadə imkanınız olmalıdır.

## Maddə 20: Şəxsi hərəkət etmə

Əlilliyi olan uşaqların yaşadıqları yerlərini dəyişmək və müstəqil olmaq hüququ vardır. Hökumətlər bunu etməyə onlara kömək göstərməlidirlər.

## Maddə 21: Söz və fikir azadlığı və informasiyaya cıxış

İnsanların öz fikirlərini ifadə etmək, informasiya axtarmaq, almaq və paylaşmaq, və informasiyanı onların başa düşəcəyi və istifadə edə biləcəyi formalarda almaq hüququna malikdirlər.

## Maddə 22: Özəl həyat hüququ

Əlilliyi olub-olmamasına baxmayaraq heç kəs insanların özəl həyatına müdaxilə edə bilməz. İnsanlar haqqında, məsələn onların sağlamlıq durumu barədə məlumatı olan şəxslər bu cür məlumatları gizli saxlamalıdırlar.

## Maddə 23: Evə və ailəyə hörmət

İnsanların ailələri ilə yaşamaq hüququ vardır. Əgər sizin əlilliyiniz varsa, hökumətiniz sizin ailənizə əlilliklə bağlı xərclər, informasiya və xidmətlər baxımından yardım etməlidir. Əlilliyiniz olduğuna görə siz ailənizdən ayrıla bilməzsiniz! Əgər siz öz doğmalarınızla yaşaya bilmirsinizsə, hökumət daha geniş ailə üzvləri və ya icma tərəfindən sizə qayğı göstərilməsini təmin etməlidir. Əlilliyi olan cavan insanların digər insanlar kimi reproduktiv sağlamlıq məlumatlarının əldə edilməsinə hüquqları çatır və başqa insanlar kimi onların da evlənmək və ailə qurmaq hüququ vardır.




Əlilliyi olan uşaqların yaşadıqları yerlərini dəyişmək və müstəqil olmaq hüququ vardır.



**“Mənim icmamda gündəlik həyat”, Pedro José Rivera, 14 yaş, Nikaraqua**

## Maddə 24: Təhsil

İnsanların məktəbə getmək hüququ vardır. Əgər sizin əlilliyiniz varsa, buna görə sizi təhsildən məhrum edə bilməzlər. Siz ayrıca təcrid olunmuş məktəblərdə təhsil almamalısınız. Sizin başqa uşaqlara verilən təhsil və tədris proqramı almanıza hüququnuz çatır və sizin hökumətiniz bunun baş verməsi üçün sizə lazım olan yardımı göstərməlidir. Məsələn, müəllimlərinizin sizi anlaması və ehtiyaclarınıza cavab verməsi üçün uyğun ünsiyyət qurulması məqsədilə hökumət lazımi yollar təmin etməlidir.

## Maddə 25 və 26: Sağlamlıq və bərpa

Əlilliyi olan insanlar başqa insanlara təmin edilən eyni səviyyə və keyfiyyətdə pulsuz və ya ucuz səhiyyə xidmətləri almaq hüququna malikdirlər. Əgər sizin əlilliyiniz varsa, sizin də səhiyyə və bərpa xidmətlərindən istifadə etmək hüququnuz vardır.

## Maddə 27: İş və işlə təmin

Əlilliyi olan insanlar ayrı-seçkilik olmadan azad şəkildə seçdikləri işdə işləmək üçün bərabər hüquqa malikdirlər.

**Maddə 28:** **Müvafiq yaşayış standartı və sosial müdafiə**

Əlilliyi olan insanların ayrı-seçkilik olmadan ərzaq, təmiz su, geyim və evlə təmin edilmə hüququ vardır. Hökumət yoxsulluq içində yaşayan əlilliyi olan uşaqlara kömək etməlidir.

**Maddə 29:** **Siyasi və ictimai həyatda iştirak**

Əlilliyi olan insanların siyasi və ictimai həyatda iştirak hüququ vardır. Ölkənizin qanunları ilə müəyyən edilmiş yaşa çatdıqdan sonra əlilliyinizin olub-olmamasından asılı olmayaraq sizin qrup yaratmaq, cəmiyyətə qulluq etmək, səsvermə yerlərinə çıxış əldə etmək, səs vermək və hökumətdə vəzifəyə seçilmək hüququnuz vardır.

**Maddə 30:** **Mədəni həyatda iştirak, istirahət, asudə vaxt və idman**

Əlilliyi olan insanların başqa insanlar kimi incəsənətlə, idmanla məşğul olmaq, oyunlarda, filmlərdə və başqa şən tədbirlərdə iştirak etmək hüququ vardır. Ona görə teatrlar, muzeylər, oyun meydançaları və kitabxanalar hər bir kəsin, o cümlədən əlilliyi olan uşaqların üzünə açıq olmalıdır.

**Maddə 31:** **Statistika və məlumatların toplanması**

Daha yaxşı proqramlar və xidmətlər hazırlamaq üçün ölkələrdə əlilliyi olan şəxslər haqqında məlumatlar toplanmalıdır. Əlillik haqqında tədqiqatlara töhfəsini verən əlilliyi olan şəxslərin hörmətlə və insani şəkildə rəftar edilmə hüququ vardır. Onların verdiyi istənilən özəl məlumat gizli saxlanmalıdır. Toplanmış statistik məlumatlardan əlilliyi olan şəxslər və digərlərin istifadə etmək imkanı olmalıdır.

**Maddə 32:** **Beynəlxalq əməkdaşlıq**

Bu Konvensiyanın maddələrinin yerinə yetirilməsi üçün ölkələr bir-birinə kömək etməlidir. Buraya daha çox resursları (məsələn, elmi məlumatlar, faydalı texnologiyalar) olan ölkələrin digər ölkələrə yardım etməsi daxildir. Bununla onlar dünyada daha çox insanın Konvensiyadan yararlanmasını təmin edə bilərlər.

**Maddələr 33 - 50:** **Əməkdaşlıq, Konvensiyanın monitorinqi və yerinə yetirilməsi qaydaları**

Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyada ümumilikdə 50 maddə vardır. 33 – 50-ci maddələr böyüklərin, xüsusilə əlilliyi olan insanlar və onların təşkilatlarının və hökumətlərin əlilliyi olan bütün insanların bütün hüquqlardan istifadə edə bilməsini təmin etmək üçün necə birgə işləməsindən bəhs edir. Bu maddələrin mətnini www.un.org/disabilities ünvanında tapa bilərsiniz.





**Babayeva Ayna, 15 yaş, Azərbaycan**

*Səslər və sükut arasında*
*Parçalanan iki dünya...*
*Əminsizəm, qoşula bilmirəm...*
*Göz yaşlarım axır...*
*Istəmədən edilən imtina və etiraz*
*Tənhalığı hiss etdirir...*
*Göz yaşlarım axır...*
*Bəzi əllər istisnadır,*
*Onlar dəstəkləyir, çəkir və ruhlandırır,*
*Daim, daim...*
*Göz yaşları axır, amma təbəssüm doğur...*
*Hələ də iki hiss arasındayam,*
*Amma sevilirəm...*

**—Sarah Leslie, 16 yaş,**
**Amerika Birləşmiş Ştatları**

# Hüquqlar necə gerçəkləşir

Əlilliyi olan uşaqların hüquqları bütün digər uşaqların hüquqları ilə eynidir. Dünyanın Konvensiya haqqında məlumat alması sizdən asılıdır. Cəmiyyətlərinin hamını inteqrasiya etməsini istəyirlərsə, insanlar fikirlərini ucadan söyləməlidirlər.

Əgər sizin əlilliyiniz varsa, bu Konvensiya sizə, sizin hökumətə və sizin ailənizə hüquqlarınıza nail olmaq və arzularınıza çatmaq üçün vasitə verir. Sizin məktəbə getmək və digər fəaliyyətlərə qatılmaq üçün eyni şansınız olmalıdır. Hansı növ əlilliyiniz olmasınadan asılı olmayaraq, həyatinizda olan böyüklər sizə hərəkət etmənizdə, başqa uşaqlarla ünsiyyətdə olmaq və oynamaqda kömək etməlidirlər.

Siz vətəndaşsınız, ailənizin və icmanızın üzvüsünüz və sizin verəcəyiniz böyük töhfəniz vardır.

> Öz hüquqlarınızın müdafiəsinə qalxın və digərləri sizin tərəfinizə keçəcəklər. Bütün uşaqlar məktəbə gedə, oynaya, və bütün işlərdə iştirak edə **BİLƏRLƏR**. Mən bacarmaram deməyin, mən **BACARARAM** deyin!
>
> **—Victor Santiago Pineda**

## Siz nə edə bilərsiniz?

Əliliyi olan uşaqların məktəbə gedə bilməsi, oynaya və istədikləri fəaliyyətlərdə iştirak edə bilməsi üçün münasibətlərin və qaydaların dəyişdirilməsi vacibdir. Sizin məktəbdə əlilliyi olan uşaqlar dərslərə və digər fəaliyyətlərə qatılırlarmı? Aranızda xüsusi qayğıya ehtiyacı olanlara müəllimləriniz dinləyir və onlara cavab verirlərmi? Sizdə əlil arabasının daxil ola bilməsi üçün keçid, jestlər dilini tərcümə edən tərcüməçi və ya yardımçı texnologiyalar varmı? Yaxşı! Deməli sizin məktəbdə əlilliyi olan uşaqlara qarşı ədalətli davranırlar və onlara öyrənmək imkanı verirlər. Sizin məktəbdə Konvensiyaya əməl edilir.

Təəssüf ki, insanların çoxu  əlilliyi olan uşaqlara qarşı ədalətli olmurlar. İcmanızın bu cür insanları daha da sıx inteqrasiya etməsində sizin rolunuz vardır. Valideynləriniz və müəllimlərinizin düşüncə tərzini dəyişmək üçün siz evinizdən və məktəbinizdən başlaya bilərsiniz.

Digərlərinə Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya və əlilliyi olan gənc insanların potensialı haqqında məlumat vermək üçün edə biləcəyiniz bir çox şeylər vardır. Məsələn, siz bunları edə bilərsiniz:

- Təşkilat və ya kampaniyaya qatılmaq. Güc çoxluqdadır. Başqaları ilə səylərini birləşdirmək üçün siz milli və ya beynəlxalq təşkilatın yerli nümayəndəliyinə dəstək verə və onlara qoşula bilərsiniz. Onların gənclər üçün xüsusi proqramları və kampaniyaları ola bilər.
- Öz layihənizi hazırlayın. Qarşınıza çıxan maneələri dəf etmək üçün məlumatlılıq kampaniyasını başlayın, maliyyə toplayın, sorğu keçirin (Tanışlarınızdan kiməsə ədalətsiz davranılıbmı? Sizin məktəbinizdə yalnız pilləkənlər vardır və əlil arabaları üçün keçidlər yoxdur?), qarşınıza duran əngəllikləri aradan qaldırmaq üçün yazılı formada müraciət edin.
- Konvensiyanı təbliğ etmək üçün klub təşkil edin. Müxtəlif bacarıqları olan uşaqları bir yerə yığın, bütün dostlarınızla ictimai tədbirlər keçirin və yeni insanları sizə qoşulmağa dəvət edin. Kino məclisləri və ya birgə şam yeməkləri təşkil edin. Sadəcə şənlənin və bir-birinizin unikal bacarıqlarınızdan həzz alın.

- Əlilliyi olan insanların hüquqları haqqında məktəbinizdə və ətraf məktəblərdə təqdimatlar keçirin. Yaradıcı olun. Konvensiyaya daxil olan hüquqları sizin məktəb yoldaşlarınızın başa düşməsinə kömək etmək üçün plakatlar və səhnəciklər hazırlayın. Təqdimatı hazırlamağa kömək etmək üçün valideyn və ya müəlliminizdən xahiş edin və onu harada və nə zaman keçirəcəyinizi planlaşdırın. Təqdimatınıza məktəb direktorunuzu da dəvət edin.
- Dostlarınızın bir qrupu ilə əlilliyi olan insanların hüquqları haqqında incəsənət əsərləri hazırlayın. Bunlar rəsmlər, əl işləri və ya heykəllər ola bilər – istənilən əsər sizə hər-hansı xəbəri paylaşmağa kömək edə bilər. Baxın görün bəlkə siz əsərlərinizi məktəbdə, ərazinizdəki kitabxanalarda, qalereyalarda və ya restoranlarda asa biləsiniz – bu, insanların əsərlərinizi seyr edə biləcəyi istənilən yer ola bilər. Bir az keçəndən sonra siz öz əsərlərinizi başqa yerlərə apara bilərsiniz və Konvensiyanı başqa insanlarla paylaşa bilərsiniz.
- Öyrəndiyiniz təcrübə və bilikləri başqalarıyla paylaşın. UNICEF Gəncliyin Səsi kampaniyası <www.unicef.org/voy> gənclər arasında populyar onlayn müzakirə forumudur.

**Bu sizin görə biləcəyiniz işlərin yalnız bir neçəsi haqqında ideyalar idi — ideyaların sərhədi yoxdur.**
**Fəaliyyətinizi təşkil etmək və şənlənmək üçün etibar etdiyiniz böyüklərdən sizə kömək etmələrini xahiş edin!**




**“Əlilliyi olan uşaqlardan ibarət rok qrupu”, Valeria D’Avola, 13 yaş, İtaliya**

Tədris materiallarının toplusunu əldə etmək üçün bu bukletdən sonra buraxılacaq *Əlillik haqqında: Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya üzrə təlim fəaliyyətləri və tədbirlərin keçirilməsi* adlı vəsaitə müraciət edin.

# Biliklərinizi yoxlayın

## (1) Buraxılmış sözləri daxil edin.

a. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın prinsiplərindən biri cəmiyyətdə tam iştirak və cəmiyyətə __________________

b. Əlilliyi olan uşağın məktəbə gedə bilməsini, oynaya bilməsini və bütün uşaqların etmək istədiyi şeyləri edə bilməsini təmin etmək üçün bir çöx qaydalar, münasibətlər və binalar __________________.

c. Hər bir insanın __________________ hüquqları vardır.

d. Qanunda əlilliyi olan insanlara qarşı __________________ olmamalıdır.

e. __________________ bir çox forması olur; o yazılı, şifahi və ya imzalanmış formada ola bilər.

## (2) Sözlərdəki hərflərin yerini dəyişərək cümlə düzəldin.

| | | |
|---|---|---|
| Zib __________________ | ahızımm __________________ | üxətmfiikl__________________ |
| əv__________________ | ahızımmnı__________________ | qilərf __________________ |
| bcaırqalraı __________________ | ırdavr__________________ | knial __________________ |
| zmiib __________________ | ahızımmnı__________________ | ynie__________________ |
| qquühalrı __________________ | rva__________________ | |

______________________________________________________________________

______________________________________________________________________

## (3) Uşaqların ümumi cəhəti nədir?




Cavablar:

(1) a. inteqrasiya; b. dəyişmək; c. bərabər; d. ayrıseçkilik; e. dil

(2) Biz hamımız müxtəlifik və hamımızın fərqli bacarıqları vardır, lakin bizim hamımızın eyni hüquqları var.

(3) Onların hamısının hüquqları bərabərdir.

# LÜĞƏT

**Qəbul etmək:** Rəsmi olaraq təsdiq etmək və ya qəbul etmək (məsələn, Konvensiya və ya bəyannaməni).

**Maddələr:** Nömrəsi olan hüquqi sənədin paraqrafı və ya bölməsi; bu nömrələr məlumatları tapmağı, onları yazmağı və onlar haqqında danışmağı asanlaşdırır.

**Yardımçı texnologiyalar:** Başqa cür edə bilməyəcəyiniz işləri görə bilmənizə kömək edən vasitələr, məsələn, əlil arabası sizə hərəkət etməyə və ya daha böyük kompüter monitoru sizə yaxşı görməyə kömək edir.

**Komitə:** Birgə işləmək və başqa insanlara kömək etmək üçün seçilmiş bir qrup insan.

**Kommunikasiya:** Məlumat paylaşması. Bu həmçinin multimediya, geniş şəkil, Brayl əlifbası, işarə dili və ya kiminsə ucadan oxuması vasitəsilə məlumatın oxunması, danışmaq və ya dərk etmək vasitəsidir.

**İcma:** Bir ərazidə yaşayan insanların qrupu. Bu həmçinin eyni maraqlar və narahatlıqları olan insanlar mənasını verir.

**Konvensiya:** Eyni qanunlar yaradıb onlara əməl etmək üçün bir qrup ölkələr tərəfindən hazırlanmış saziş və ya müqavilə.

Uşaq Hüquqları Konvensiyası bütün uşaqların cəmiyyətin üzvləri kimi öz hüquqlarından istifadə edə bilməsini və uşaq qismində onların xüsusi qayğı görməsi və müdafiə olmasını təmin edən müqavilədir. Bu sənəd tarixdə ən çox ölkə tərəfindən qəbul edilmiş insan hüquqları sazişidir.

Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya bütün insanların, o cümlədən əlilliyi olan uşaqların öz hüquqlarından istifadə edə bilməsini təmin edən müqavilədir.

**Ləyaqət:** İnsan kimi sizin irsən qəbul etdiyiniz dəyərliliyiniz və hörmətiniz. Sizin özünəhörmətiniz. Ləyaqətlə rəftar edilmək başqa insanlar tərəfindən hörmətlə qarşılanmaq deməkdir.

**Ayrı-seçkilik:** İrq, din, cins və ya fərqli bacarıqlar səbəblərdən birinə görə bir şəxsin və ya şəxslərdən ibarət qrupun ədalətsiz rəftarı.

**İcra:** Nəyisə qüvvəyə mindirmək. Konvensiyanın maddələrini icra etmək onda verilmiş vədləri həyata keçirmək deməkdir.

**İrsən keçmiş ləyaqət:** Bütün insanların doğulduqları zamanı əldə etdikləri ləyaqət.

**Hüquqi:** Qanuna aid olan, ona əsaslanan və ya onunla tələb olunan.

**Əzələ distrofiyası:** Vaxt keçdikcə əzələlərin zəifləməsinə səbəb olan tibbi durum.

**Ratifikasiya (ratifikasiya etmək):** İmzalanmış Konvensiya və ya müqavilənin ölkə tərəfindən rəsmi şəkildə təsdiqlənməsi və həmin ölkənin qanununa çevrilməsi.

**Üzv dövlətlər:** Konvensiyaya imza atmış və onunla razılaşmış ölkələr.

**UNICEF:** BMT-nin Uşaq Fondu. Bu, uşaqların hüquqları, onların sağ qalması, inkişafı və müdafiəsi üçün işləyən və BMT sisteminə daxil olan agentlikdir. Onun məqsədi uşaqlar üçün – hamımız üçün daha yaxşı, təhlükəsiz və mehriban dünya qurmaqdır.

**Birləşmiş Millətlər Təşkilatı:** Demək olar ki, bütün dünya ölkələrinin təşkilatı. Hökumətlər BMT-nin Nyu Yorkdakı qərargahında bir araya gəlirlər və sülh və daha yaxşı dünya qurulması üçün birgə işləyirlər.

**İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi:** Bütün BMT ölkələri tərəfindən 10 dekabr 1948-ci il tarixdə imzalanmışdır və bu sənəd bütün insanların hüquqlarını özündə əks etdirir.

**Hər bir uşaq üçün**
**Sağlamlıq, Təhsil, Bərabərlik, Müdafiə**
**HUMANİZMƏ DOĞRU**

Əlavə məlumat üçün
UNİCEF-in Uşaq Müdafiəsi Bölməsi ilə
əlaqə saxlayın.

© Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF)
2010-cu il

unicef
uşaqlar naminə birləşək